

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qiblənahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 22 (23.434)

*5 fevral 2020-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Prezident İlham Əliyev Vasif Talıbova “Şərəf” ordenini təqdim edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovu qəbul edib.

Vasif Talıbov Naxçıvan Muxtar Respublikasında görülən işlər barədə dövlətimizin başçısına məruzə edib. O, 2019-cu ildə Naxçıvanda sosial-iqtisadi, kənd təsərrüfatı, tikinti, turizm və digər sahələrdə qazanılan uğurlardan danışıb və bütün bu uğurların əldə olunmasında Prezident İlham Əliyevin göstərdiyi diqqət və qayğını dərin minnətdarlıq hissi ilə qeyd edib.

Prezident İlham Əliyev Naxçıvanda 2019-cu ildə əldə olunmuş uğurlar münasibətilə Vasif Talıbovu təbrik edib. Dövlətimizin başçısı Naxçıvan Muxtar Respublikasının inkişafı və təhlükəsizliyi məsələlərinin daim onun diqqət mərkəzində olduğunu vurğulayaraq, prezidentlik dövründə 14 dəfə Naxçıvana səfər etməsini bu diqqətin təzahürü kimi dəyərləndirib.

Bu ilin yanvar ayında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Vasif Talıbov 60 illik yubileyi münasibətilə “Şərəf” ordeni ilə təltif edilib. Prezident İlham Əliyev “Şərəf” ordenini Vasif Talıbova təqdim edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov fəaliyyətinə verilən yüksək qiymətə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

**AZƏRTAC**

İcmal

## Ulu öndərimiz Heydər Əliyevin əsasını qoyduğu mütərəqqi inkişaf strategiyası ötən il də qətiyyətlə həyata keçirilib

*Ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında ulu öndərimiz Heydər Əliyevin strateji kursuna əsaslanan praqmatik siyasətin reallaşdırılması iqtisadi yüksəlişin davamlı xarakter almasına yol açıb, yüksək meyarlara cavab verən gələcəyin təmin edilməsi istiqamətində möhkəm sosial-iqtisadi baza formalaşdırıb. Dövlət başçısının müəyyən etdiyi* ***“Güclü dövlət, yüksək rifah”*** *strategiyası qədim diyarda əməli işdə nümunəvi şəkildə özünü göstərir. Hər bir sakinin rifah halının, yaşayış şəraitinin daha da yaxşılaşdırılması, muxtar respublikanın hər bir bölgəsinin potensialından tam və səmərəli istifadə olunması, inkişafının tarazlaşdırılması, sahibkarlara dəstək verilməsi və çoxsaylı yeni iş yerlərinin açılmasına şərait yaradılması istiqamətində ciddi siyasi iradə və qətiyyət nümayiş etdirilir. Bu baxımdan muxtariyyətinin 95-ci ildönümünü qeyd edən Naxçıvan həm də “Ailə təsərrüfatları ili” kimi uğurlarla tarixiləşən 2019-cu ili böyük nailiyyətlərlə başa vurub. Ötən ilin mühüm əhəmiyyəti ilə seçilən tədbirlərinə diqqət yetirsək bir daha bunun şahidi olarıq.*



Naxçıvan Muxtar Respublikasında ardıcıl olaraq görülən işlər nəticəsində 2019-cu ildə müstəqil Azərbaycan Respublikasının quruculuq salnaməsi layiqli nümunələrlə zənginləşdirilib. Qədim diyarın şəhər və qəsəbələri ilə yanaşı, kəndləri də abadlaşdırılıb, müasir görkəm alıb. Ordubad rayonunun Dəstə kəndi isə ötən ilin ilk abadlaşan yaşayış məntəqəsi olub. Burada müasir məktəb, kənd və xidmət mərkəzləri, lazımi tibbi avadanlıqlarla təmin olunmuş həkim ambulatoriyası, rahat yol tikilib, içməli su xətti çəkilib, geniş abadlıq işləri aparılıb. Yanvarın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov həmin obyektlərin açılışında iştirak edib.

Bir faktı da xatırlatmaq yerinə düşər ki, 2019-cu ildə 10 kənd mərkəzi istifadəyə verilib. Bundan əlavə, muxtar respublikada 2 yaşayış binasının tikintisi, 11 yaşayış binasının yenidən qurulması, həmçinin Ordubad rayonunda dövlət qurumları üçün inzibati binanın və Ordubad Rayon İcra Hakimiyyətinin inzibati binasının yenidən qurulması başa çatdırılıb. Bütün bunlar doğma diyarımızda insan amilinə verilən yüksək qiymətin təzahürüdür.

Naxçıvanda səhiyyənin inkişafı sahəsində həyata keçirilən kompleks tədbirlərin nəticəsidir ki, müalicə üçün başqa yerlərə müraciət edənlərin sayında kəskin azalma var. Artıq sakinlər sağlamlıqlarını muxtar respublikanın səhiyyə müəssisələrinə və həkimlərinə etibar edirlər. Muxtar respublikada icbari tibbi sığortanın tətbiqi isə insan amilinə verilən növbəti dəyər olmaqla yanaşı, həm də tibbi xidmətin səviyyəsinin daha da yüksəldilməsinə öz töhfəsini verir.

Ötən il yanvarın 24-də icbari tibbi sığortanın tətbiqinə həsr edilmiş ilin ilk mühüm tədbiri muxtar respublikanın ən böyük bölgəsi olan Şərur rayonunda keçirilib, bununla əlaqədar rayonda təşkil edilən müşavirədə qarşıda duran vəzifələr müəyyənləşdirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 yanvar tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı” təsdiq edilib. Yubiley ilə əlaqədar il ərzində silsilə tədbirlər keçirilib, fevralın 9-da muxtar respublikanın yaranmasının 95-ci ildönümü qeyd olunub. Tədbirdə çıxış edən Ali Məclis Sədrinin vurğuladığı kimi, Naxçıvana muxtariyyət verilməsinin əsas səbəblərindən biri də bu məsələnin böyüyərək regional müstəviyə çıxması və beynəlxalq hüququn subyektinə çevrilməsi idi. Qeyd etmək kifayətdir ki, Naxçıvan məsələsi 1918-1921-ci illər ərzində altı ölkədə müxtəlif səviyyələrdə iyirmi dəfədən çox müzakirəyə çıxarılıb, sonda isə Naxçıvan əhalisinin və ziyalılarının inadlı mübarizəsi, qardaş Türkiyə hökumətinin tutduğu ədalətli mövqe nəticəsində 1921-ci ildə Naxçıvanın muxtar respublika statusunda Azərbaycanın tərkibində qalmasını şərtləndirən beynəlxalq Moskva və Qars müqavilələri imzalanıb. Bu müqavilələrin davamı və yaranmış real vəziyyətin hüquqi təsdiqi olaraq 1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının yaradılması haqqında Dekret verilib. Bu, Azərbaycan xalqının olduqca mürəkkəb və çətin şəraitdə əldə etdiyi ən böyük tarixi nailiyyət idi.

Muxtar respublikada bütün sahələrlə yanaşı, sahibkarlığın da inkişafına xüsusi diqqət yetirilir. Mövcud şəraitin nəticəsidir ki, Azərbaycan Respublikası Prezidentinin ilk sədri olduğu “Caspian European Club”un 2018-ci ildə ölkəmizin 10 iqtisadi regionu üzrə hazırladığı illik investisiya reytinqində Naxçıvan Muxtar Respublikası 18 parametr üzrə ən yüksək bal toplayaraq ikinci dəfə lider olub.

Ötən il fevralın 16-da Naxçıvan Biznes Mərkəzində Ali Məclis Sədrinin muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla görüşü olub, muxtar respublikanın investisiya reytinqində qalib olması ilə bağlı təqdimat keçirilib. Tədbirdə “Caspian European Club”un sədrinin birinci müavini və baş icraçı direktoru Telman Əliyev Naxçıvan Muxtar Respublikasında investisiya və biznes mühitinin inkişafına verdiyi xüsusi töhfəyə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova “Caspian European Club”un mükafatını təqdim edib.

Mart ayında muxtariyyət tariximizin müstəqillik dövrünün böyük quruculuq salnamələrindən olan Kəngərli rayonunun yaranmasının 15 ili tamam oldu. Ötən dövrdə rayonun əsas inkişaf göstəricilərindən biri də əhalisinin sayının 7 min nəfərə yaxın artaraq 32 minə çatmasıdır. Bu müddətdə rayonun bütün kəndləri və Qıvraq qəsəbəsi kompleks abadlaşıb, inzibati binalar tikilib, yeni yollar, körpülər salınıb, 2 meqavatlıq Günəş Elektrik Stansiyası qurulub, dünya əhəmiyyətli memarlıq nümunəsi olan Qarabağlar Türbə Kompleksinə ikinci həyat verilib. Qıvraq qəsəbəsində tikilən 7 mərtəbədən və 48 mənzildən ibarət yaşayış binası da bunun bariz nümunəsidir.

Martın 7-də Ali Məclis Sədrinin iştirakı ilə Kəngərli rayonunun yaranmasının 15-ci ildönümü qeyd edilib, Qıvraq qəsəbəsində yeni yaşayış binasının açılışı olub. Ali Məclisin Sədri rayonun inkişafında əməyi olan bütün sakinlərə təşəkkür edib və əminliyini bildirib ki, Kəngərli rayonu bundan sonrakı yubileylərini də yüksək inkişaf göstəriciləri ilə qeyd edəcəkdir.

Muxtar respublikada innovasiyaların tətbiqi sahəsində ötən illərdə yaradılan şərait imkan verir ki, gənclərin ideyaları dəstəklənsin və startap layihələri uğurla həyata keçirilsin. Bu zərurətdən yaranan “Startap Naxçıvan” hərəkatının əsas məqsədi muxtar respublikada investisiya mühitini yaxşılaşdırmaq, yaradıcı düşüncəni və inkişafa xidmət edən ən yaxşı layihələri üzə çıxarmaq, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə dəstək olmaqdır. Ali Məclis Sədrinin 2015-ci il 27 iyul və 2019-cu il 3 aprel tarixli sərəncamları elmin nəzəriyyə və təcrübə ilə hərtərəfli inteqrasiyasına yol açıb.

Aprelin 15-də “Naxçıvan Muxtar Respublikasında ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinin vəziyyəti və innovasiyaların dəstəklənməsi barədə” müşavirədə də bu məsələlər qeyd olunub, müvafiq tapşırıqlar verilib.

Bu gün diyarımızda yaradılan şahmat infrastrukturu, şahmat məktəblərinin fəaliyyəti nümunə kimi qəbul edilir. Muxtar respublikada hər il keçirilən ənənəvi beynəlxalq şahmat festivalları naxçıvanlı şahmatçılara böyük təcrübə qazandırır. Bu həm də qlobal idman arenasında uğurlu nəticələri ilə diqqəti cəlb edən, beynəlxalq yarışların keçirildiyi məkana çevrilən Naxçıvanın tanıdılması baxımından böyük əhəmiyyətə malikdir.

Ötən il mayın 1-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş “Naxçıvan – 2019” Beynəlxalq Şahmat Festivalının açılışı olub.

Qədim diyarımızın həyatında Duzdağ Fizioterapiya Mərkəzinin xüsusi rolu vardır. Ötən 40 ildə uğurla fəaliyyət göstərən mərkəz müstəqillik illərində yenidən qurularaq müasir səhiyyə müəssisəsinə çevrilib. Duzdağ Fizioterapiya Mərkəzi artıq muxtar respublikanın brendinə çevrilib. Hər il 4 minə yaxın insan mərkəzə müraciət edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2019-cu il mayın 16-da “Duzdağ Fizioterapiya Mərkəzinin 40 illik yubileyinin keçirilməsi haqqında” Sərəncam imzalayıb, Tədbirlər Planı təsdiq edilib. Mayın 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Duzdağ Fizioterapiya Mərkəzinin 40 illik yubileyi münasibətilə təltiflər təqdim olunub.

*Ardı 2-ci səhifədə*

Azərbaycan ilə Türkiyə arasındakı əlaqələrin inkişafında Naxçıvan Muxtar Respublikasının mühüm yeri vardır. Qardaş ölkənin yüksək səviyyəli rəsmi şəxslərinin muxtar respublikamıza səfərləri də bunu bir daha sübut edir. Belə ki, iyunun 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar ilə, noyabrın 17-də Diyanət İşləri Başqanı Əli Erbaş ilə, dekabrın 6-da isə Ticarət nazirinin müavini Rza Tuna Turaqayın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşlərdə qarşılıqlı maraqdoğuran məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən iyunun 11-də Naxçıvanda iki ölkənin Silahlı Qüvvələrinin "Sarsılmaz qardaşlıq – 2019" birgə döyüş atışlı taktiki təlimləri keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov, Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar və Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov birgə döyüş atışlı taktiki təlimi izləyiblər.

2019-cu ilin ilk 6 ayı muxtar respublikanın sosial-iqtisadi, ictimai həyatında mühüm hadisələrlə yadda qalıb. Bu dövrdə iqtisadi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalı 2018-ci ilin müvafiq dövrünə nisbətən 1,4 faiz artaraq 1 milyard 278 milyon 115 min manat olub. Bu dövrdə muxtar respublikada tikinti və yenidənqurmadan sonra, ümumilikdə, 67 obyekt istifadəyə verilib. Muxtar respublikanın inkişafının yüksələn xətt üzrə davam etdiyini göstərən bu və digər əhəmiyyətli faktlar iyunun 28-də beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasında qeyd olunub.

Xalqa və dövlətə sədaqətlə xidmət edən, milli maraqlarımızın və mənafelərimizin keşiyində layiqincə dayanan, muxtar respublikamızın təhlükəsizliyi əleyhinə yönəlmiş təhdidlərin qarşısının alınmasında əzmkarlıq nümayiş etdirən Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidməti sabitliyin, qanunçuluğun, hüquq qaydalarının etibarlı təminatçıları kimi çıxış edən əhəmiyyətli dövlət orqanlarıdır. Qürurla deyə bilərik ki, bu gün muxtar respublikada təhlükəsizlik təmin olunub.

Xüsusi xidmət orqanlarının uğurlu fəaliyyətinin daha da genişləndirilməsi qarşıda duran əsas vəzifələrdəndir. İyulun 9-da Dövlət Təhlükəsizliyi Xidmətində "Naxçıvan Muxtar Respublikasında təhlükəsizliyin təmin olunması sahəsində görülən işlər və qarşıda duran vəzifələr barədə" keçirilən müşavirədəki müzakirələr də bu məsələlərin dövlətimizin daim diqqət mərkəzində olduğunu göstərir.

Böyük mütəfəkkirlərin, sərkərdələrin, dahilərin Vətəni olan Naxçıvanın yetişdirdiyi şəxsiyyətlərin fövqündə dayanan ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlişinin 50 illiyi ötən il ölkəmizdə, o cümlədən muxtar respublikamızda mühüm tarixi hadisə kimi müxtəlif tədbirlərlə qeyd olunub. Bu çərçivədə iyulun 10-da ölkəmizin 50 fəal gəncinin iştirakı ilə "Heydər Əliyev siyasi məktəbini öyrənirik" Gənc Liderlər Proqramı keçirilib. Ali Məclisin Sədri bu proqram çərçivəsində muxtar respublikaya səfər edən gənclərlə görüşüb. Ali Məclisin Sədri genişməzmunlu çıxışında böyük ömrün Azərbaycan naminə fəaliyyətini altı mühüm mərhələ üzrə ətraflı təhlil edib.

İyulun 13-də ümummilli lider Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəlməsinin 50 illiyi münasibətilə tədbir keçirilib. Ali Məclisin Sədri tədbirdə çıxış edib. Sonra "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalının, eləcə də Azərbaycan Respublikasının fəxri adlarının və medallarının, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin gənc istedadlara xüsusi aylıq təqaüdünün təqdimatı olub.

Təhsil strateji əhəmiyyətli fəaliyyət sahəsi kimi ölkənin, diyarın siyasi-iqtisadi, sosial və mədəni inkişafını müəyyən edir. Sevindirici haldır ki, bu məsələlər Naxçıvanda xüsusilə diqqət mərkəzində saxlanılır. Muxtar respublikada aparılan uğurlu təhsil siyasətinin nəticəsidir ki, ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayan tələbələrin sayı ildən-ilə daha da artır.

Ötən il avqustun 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında 500-700 arası bal toplamış tələbələrlə görüşü olub.

2019-cu il sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılıb, fondun nizamnaməsi və müşahidə şurasının üzvləri təsdiq olunub. Muxtar respublikada mediaya dövlət dəstəyinin verilməsi istiqamətində fəaliyyət göstərəcək belə bir mühüm dövlət qurumunun yaradılması Naxçıvanda kütləvi informasiya vasitələrinin inkişafına böyük diqqətin növbəti nümunəsidir.

Sentyabrın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun müşahidə şurasının ilk iclası və media nümayəndələri ilə görüş keçirilib. Ali Məclisin Sədri görüşdə səsləndirilən təkliflərin nəzərə alınması və icrası barədə tapşırıqlar verib, kütləvi informasiya vasitələrinin qarşısında duran vəzifələrdən ətraflı bəhs edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə muxtar respublikada arıçılığın inkişafı sahəsində mühüm tədbirlər görülüb, arı ailələrinin sayı artıb. 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunması bu sahədə də uğurlu nəticələrin əldə edilməsinə şərait yaradıb. Hər il Naxçıvan şəhərində "Arıçılıq məhsulları – bal festivalı"nın keçirilməsi arıçılar üçün geniş imkanlar açır. Sentyabrın 28-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən növbəti festivalda iştirak edən Ali Məclisin Sədri arıçılarla söhbət edib, bal alıb, onların qayğıları ilə maraqlanıb.

Dövlətin təhlükəsizliyinin əsasında dövlət sirri təşkil edən məlumatların mühafizəsi, məxfiləşdirilməsi və qanunauyğun istifadəsi dayanır. Ali Məclis Sədrinin 2019-cu il 17 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın yaradılmasında da əsas məqsəd bu sahə üzrə qanunvericiliyin muxtar respublikada həyata keçirilməsini təmin etməkdən, normativ-hüquqi aktların və metodik sənədlərin işlənib hazırlanması və yerinə yetirilməsi üçün dövlət orqanlarının fəaliyyətini əlaqələndirməkdən ibarətdir.

Oktyabrın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın fəaliyyəti barədə keçirilən müşavirədə Ali Məclisin Sədri komissiyanın fəaliyyət istiqamətləri barədə müvafiq tapşırıqlar verib.

Ali Məclis Sədrinin 2019-cu il 7 sentyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondu yaradılıb. Oktyabrın 9-da fondun Himayədarlar Şurasının fəaliyyətinin təşkili və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə çıxış edən muxtar respublika rəhbəri dövlətin sosial-iqtisadi qüdrətinin, cəmiyyətin mədəni tərəqqisinin və xalqın rifahının elmin inkişaf səviyyəsi ilə birbaşa bağlı olduğunu vurğulayıb, bu istiqamətdə görüləcək kompleks işlərlə bağlı müvafiq tapşırıqlar verib.

Həyata keçirilən uğurlu təhsil strategiyası ötən tədris ilində də muxtar respublika üzrə buraxılış imtahanlarının nəticələrinin Azərbaycan üzrə orta statistik göstəricidən yüksək olmasına yol açıb. Oktyabrın 25-də Naxçıvan Muxtar Respublikasının ali və orta ixtisas təhsili müəssisələrinə qəbulun nəticələri və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə Ali Məclisin Sədri təhsilin yeni mərhələdə inkişafını təmin etmək üçün müvafiq tapşırıqlar verib.

Ailə təsərrüfatları daxili bazarın keyfiyyətli yerli məhsullarla təminatı ilə yanaşı, özünüməşğulluğa və iqtisadi inkişafa da mühüm töhfə verir. 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunması isə bu sahəyə marağı daha da artırıb. Görülən işlərin davamı olaraq ötən il noyabrın 2-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində növbəti "Ailə təsərrüfatı məhsulları" festivalı keçirilib. Tədbirdə iştirak edən Ali Məclisin Sədri ailə təsərrüfatı sahibləri ilə söhbət edib, müvafiq dövlət qurumları tərəfindən belə təsərrüfatlara bundan sonra da dəstək göstərilməsi barədə tapşırıqlar verib.

Bu gün muxtar respublikamız bütün istiqamətlər üzrə böyük nailiyyətlərə imza atır. Ulu öndərimizin yolunu uğurla davam etdirərək qədim diyara həmişə böyük qayğı və diqqət göstərən Prezident cənab İlham Əliyev ötən il noyabrın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovu qəbul edərkən muxtar respublikanın sürətli sosial-iqtisadi inkişafını bir daha yüksək qiymətləndirərək deyib: ***"Naxçıvan son illər ərzində böyük dərəcədə inkişaf etmişdir, həm sosial sahədə, iqtisadi sahədə, sənaye potensialının möhkəmləndirilməsi istiqamətində böyük addımlar atılmışdır. Bu, çox sevindiricidir. Xüsusilə nəzərə alsaq ki, Naxçıvan uzun illər ərzində mühasirə şəraitində yaşayır, üç tərəfdən düşmənlə əhatə olunub. Buna baxmayaraq, respublika yaşayır, güclənir və böyük inkişaf yolunu davam etdirir".***

Ümummilli siyasi qüvvə kimi tarixi qanunauyğunluqdan doğaraq dövlətçiliyin keşiyində dayanan Yeni Azərbaycan Partiyası uzun illərdir, ölkəmizin, o cümlədən muxtar respublikamızın inkişafını təmin edir. Məhz buna görədir ki, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı mühüm siyasi qüvvə kimi formalaşıb, sıraları həm kəmiyyət, həm də keyfiyyət baxımından xeyli zənginləşib.

Noyabrın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri cənab Vasif Talıbovun sədrliyi ilə təşkilatın Siyasi Şurasının iclasında partiyanın muxtar respublika təşkilatının fəaliyyəti və qarşıda duran vəzifələr müzakirə olunub.

Muxtar respublika rəhbərinin təşəbbüsü ilə mövcud muzeylərin şəraitinin yaxşılaşdırılması və maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər Naxçıvanda tariximizə, mədəniyyətimizə, milli dəyərlərimizə göstərilən qayğının ifadəsidir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 2 avqust tarixli "Naxçıvan Dövlət Tarix Muzeyinin 95 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalaması, bununla bağlı Tədbirlər Planının təsdiq edilməsi, noyabrın 30-da isə Ali Məclis Sədrinin iştirakı ilə muzeyin 95 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması tariximizə göstərilən yüksək qayğının daha bir ifadəsidir.

Şərq və Qərb modellərinin sintezinin ifadə olunduğu bir məkan kimi şöhrət qazanan Naxçıvanda bu gün ideya və dəyərlər sisteminin formalaşmasına əsaslı təsir göstərən milli və mənəvi dəyərlərimiz yaşadılır, təbliğ olunur. Bu mənada, ötən il dekabrın 4-də İslamın qədim mərkəzlərindən biri olan müqəddəs diyarda Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin isə 40 illik yubileyinin qeyd olunması, bu çərçivədə Ordubad rayonunun Dırnıs kəndində "Allahşükür məscidi"nin istifadəyə verilməsi mühüm əhəmiyyət daşıyır.

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı hər il yeni yüksəliş mərhələsinə qədəm qoyur. Tarixə qovuşan 2019-cu ilin müxtəlif sahələr üzrə göstəriciləri də bundan əvvəlki illərin göstəricilərindən xeyli yüksəkdir. Ötən il dekabrın 21-də keçirilən beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onbirinci sessiyasında da qeyd olunduğu kimi, muxtar respublikada mövcud potensialdan istifadə edilməklə yeni istehsal müəssisələrinin işə salınması iqtisadiyyatın çoxşaxəli inkişafına, məşğulluq səviyyəsinin yüksəldilməsinə, sosial layihələrin uğurla həyata keçirilməsinə şərait yaradıb. 2019-cu ildə ümumi daxili məhsulun həcmi 2 milyard 839 milyon 650 min manat olub ki, bu da bir il öncəki göstəricidən 1,5 faiz çoxdur. Ümumi daxili məhsulun tərkibində ilk yeri 27,6 faizlik payla sənaye sahəsi tutub və maddi istehsalın payı 58,9 faiz təşkil edib.

Dekabrın 23-də ölkəmizdə növbəti bələdiyyə seçkiləri keçirilib. Ali Məclisin Sədri 4 saylı Naxçıvan şəhər seçki dairəsinin Heydər Əliyev adına tam orta məktəbdə yerləşən 4-15 saylı seçki məntəqəsində səs verib, seçki prosesinin gedişi ilə maraqlanıb.

***Qətiyyətlə deyə bilərik ki, muxtar respublikada aparılan məqsədyönlü siyasət, həyata keçirilən tədbirlər nəticəsində 2019-cu ildə bütün sahələrdə inkişafa nail olunub, ərzaq, enerji və müdafiə təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlər davam etdirilib, makroiqtisadi göstəricilər artıb, yaşayış məntəqələrində geniş quruculuq işləri aparılıb. Ötən il əməkhaqlarının artırılması, yeni iş yerlərinin açılması əhalinin rifahını və məşğulluğunu təmin edib, sabitlik daha da möhkəmlənib. Bu baxımdan Naxçıvan Muxtar Respublikası 2020-ci ili böyük uğur və nailiyyətlərlə qarşılayıb. Qazanılan bütün bu uğurlar ulu öndərimiz Heydər Əliyevin ideya və amallarının dönmədən həyata keçirilməsi nəticəsində mümkün olub.***

**Rauf KƏNGƏRLİ**

## Vergi və digər ödənişlərin büdcəyə ödənilməsi təmin edilib

*Dövlətin həyata keçirdiyi tədbirlər təkcə vergiödəyicilərinin deyil, bütövlükdə cəmiyyətin qanuni maraqlarını müdafiə edir. Bu baxımdan vergi intizamı və mədəniyyətinin, vətəndaşlarda vergi qanunvericiliyinə hörmətlə yanaşmaq bacarığının formalaşdırılması öz müsbət nəticələrini verməkdədir. Belə ki, 2020-ci ilin yanvarında Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti üzrə müəyyənləşdirilmiş proqnoz 109,5 faiz icra edilib. Daxil olmuş vəsaitlərin mənbəyinə gəldikdə onların 39,5 faizi dövlət, 60,5 faizi isə özəl sektorun payına düşüb.*



Sığortaolunanların itirilmiş əməkhaqlarının kompensasiya olunması və işsizliyin yaranması hallarının qarşısının alınması üçün qabaqlayıcı tədbirlərin görülməsi yolu ilə əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində büdcəyə yönəldilən ödənişlər onların rifah halının yaxşılaşdırılmasına hesablanmış tədbirlərdir. Qeyd olunan dövrdə məcburi dövlət sosial sığorta haqları üzrə proqnoza 113,7, işsizlikdən sığorta üzrə proqnoza isə 114,1 faiz əməl edilib. İstər vergilər, istərsə də məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta üzrə proqnozlar bütün yerli vergi orqanları üzrə artıqlaması ilə icra edilib.

Muxtar respublikamızda sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması məqsədilə bu sahənin hüquqi bazası təkmilləşdirilib, əlverişli biznes mühiti formalaşdırılıb. Hesabat dövründə Dövlət Vergi Xidmətinin "bir pəncərə" qeydiyyat sistemi vasitəsilə 4 publik hüquqi şəxs, həmçinin yerli vergi orqanları tərəfindən 244 fiziki şəxs sahibkarlıq uçotuna alınıb. Qeydiyyata alınan fiziki şəxslərin 66,4 faizi muxtar respublika rayonlarının payına düşüb. Sahibkarlığın inkişafına göstərilən böyük diqqət güclü sahibkarlar təbəqəsinin formalaşmasına xidmət edir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Naxçıvanda ölkə üzrə nominal əməkhaqqının səviyyəsi daha yüksəkdir

2019-cu ilin yanvar-noyabr aylarında orta aylıq əməkhaqqının məbləği 475 manat təşkil edib. Bu da 2018-ci ilin müvafiq dövründəki göstəricidən 10,5 faiz çoxdur. Naxçıvan Muxtar Respublikası üzrə orta aylıq nominal əməkhaqqının səviyyəsi ölkənin digər iqtisadi rayonları ilə müqayisədə daha yüksəkdir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası muxtar respublikada işaxtaranların sosial müdafiəsinin gücləndirilməsinə, səmərəli məşğulluğun və özünüməşğulluğun təmin edilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə geniş imkanlar yaradıb.

**Xəbərlər şöbəsi**

*Ədəbiyyat dövlət siyasətinin üzvi tərkib hissəsi kimi milli siyasətin həyata keçirilməsində əsas rol oynayır. Görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi fəaliyyətində ədəbiyyatın yeri, rolu və imkanları çox genişdir. Ədəbiyyata xalqın tarixi yaddaşı kimi baxan ulu öndər bədii düşüncədə tarixilik, millilik və müasirlik prinsiplərinə xüsusi dəyər vermişdir. Həmin prinsiplər dövlətçilik təlimində ədəbiyyat siyasətinin, müstəqil Azərbaycan dövlətinin quruculuğunun təməlini təşkil edir.*

# Dövlətçilik təlimində ədəbiyyat siyasəti və müasir dövr

Hələ gənclik illərindən etibarən qeyri-adi mütaliə qabiliyyəti ilə fərqlənən, məktəb yaşlarından peşəkar teatr xadimləri ilə yanaşı, cəsarətlə səhnəyə çıxan ulu öndərin dünyagörüşünün formalaşmasında ədəbiyyat amili xüsusi yer tutur. O, bədii ədəbiyyatın taleyindəki böyük rolunu yüksək qiymətləndirmişdir. Böyük siyasi xadim Cəlil Məmmədquluzadənin "Ölülər" tragikomediyası, xalq şairi Səməd Vurğunun "Azərbaycan" şeiri, Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poeması, "Molla Nəsrəddin" jurnalı, Hüseyn Cavidin "İblis" mənzum faciəsinə önəm verdiyini, onlardan bəhrələndiyini dəfələrlə xatırlatmışdır.





Dahi şəxsiyyət ədəbiyyata xalqın milli-tarixi varlığının, mənəviyyatının inikası kimi baxmış, mənsub olduğu xalqın ədəbiyyatı ilə birgə bütöv bir tamın ayrılmaz hissəsi kimi dəyərləndirmişdir. Görkəmli dövlət xadimi 1972-ci ildə Azərbaycan yazıçılarının beşinci qurultayındakı tarixi nitqində demişdir: ***"Azərbaycan ədəbiyyatı həmişə öz xalqının həyatının ön sıralarında irəliləmişdir. Bu ədəbiyyat xalqımızın qəhrəmanlıq tarixini ədəbiləşdirib bizə çatdırmış, bizim qarşımızda bütün əzəməti ilə açmışdır".***

Ümummilli liderin bu istiqamətdə apardığı ardıcıl və düşünülmüş siyasəti ilə milli mücadiləyə meydan açılmış, sovet hakimiyyəti illərində Azərbaycan dilinin dövlət dili səviyyəsinə qaldırılması və ölkənin Konstitusiyasına ayrıca maddə kimi daxil edilməsinə nail olmuşdur. Görkəmli dövlət xadiminin ədəbiyyat təlimindəki millilik anlayışı özündə Azərbaycançılıq məfkurəsini əks etdirməklə bu istiqamətdə apardığı geniş siyasi-ideoloji işdə əsas vasitə idi. Azərbaycan ədəbiyyatı klassiklərinin onlarla nümayəndəsinin dövlət səviyyəsində yubileylərinin keçirilməsi milli məfkurənin geniş miqyasda yayılmasına, dünyəvi təbliğinə xidmət etmişdir.

"Kitabi-Dədə Qorqud" dastanlarının yaranmasının 1300 illiyinin, Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi kimi qüdrətli sənətkarların yubileylərinin beynəlxalq miqyasda qeyd olunması görkəmli dövlət xadiminin Azərbaycan xalqı və ölkəsinin dünya səviyyəsində tanınmasına, dövlətimizə və xalqımıza etibarlı tərəfdaşlar qazanmasına müsbət təsir etmişdir. Azərbaycan klassiklərinin Bakıdan başlanan yubiley təntənələri Kremlə və YUNESKO iqamətgahlarına qədər addımlamışdır. Ulu öndər Heydər Əliyev deyirdi: ***"Biz Nizaminin, Xaqaninin, Nəsiminin, Füzulinin adlarını böyük iftixar hissi ilə çəkirik və onların əsərlərini oxuyaraq xalqımızın nə qədər dahi, müdrik və istedadlı xalq olduğunu bir daha dərk edirik. Eyni zamanda dünya, bəşər qarşısında bunlarla fəxr edirik, öyünürük. Öyünməyə də haqqımız var. Çünki bu böyük insanlar nəinki bizim xalqımızı, bütün bəşəriyyəti, bəşər tarixini zənginləşdirən əsərlər yazmışlar. Onlardan sonra gələn nəsillər də bu ənənəni, xüsusiyyəti davam etdirmişlər. Ona görə də tariximizin hansı əsrinə, hansı səhifəsinə baxsan, orada şairlərin, yazıçıların, mədəniyyət xadimlərinin izlərini, əsərlərini görəcəksən..."***

Ümummilli liderin ədəbiyyat siyasətində tarixilik prinsipi özünəməxsus yer tutur. Dahi siyasətçi Azərbaycan xalqına özünün soykökünü, milli-tarixi keçmişini dərindən və əsaslı şəkildə dərk etdirmək, mənimsətmək, xalqımızda milli qürur hisslərini daha da yüksəltmək üçün tarixi mövzularda bədii əsərlərin yazılmasına meydan verilməsini zəruri saymışdır. Tarixi mövzulardakı bədii əsərlərin əsasında filmlərin çəkilməsi, teatr tamaşalarının hazırlanması, bu əsərlərin xarici dillərə tərcümə olunması və nəşri prosesinin kütləviləşdirilməsi həmin əsərlərin təbliği miqyasını genişləndirmişdir.

Ümummilli liderin ədəbiyyat siyasətində müasirlik anlayışının özünəməxsus yeri vardır. Böyük siyasətçinin nəzərində müasirlik həm çağdaş həyatın ədəbiyyatda əks etdirilməsi, həm də müasir düşüncənin, yeni təfəkkürün ədəbiyyata gətirilməsi deməkdir. Azərbaycan cəmiyyətində və ədəbiyyatında müasirlik anlayışını məhz həmin konsepsiya formalaşdırmışdır. Müasir Azərbaycan ədəbiyyatı nailiyyətlərini bu siyasət nəticəsində əldə etmişdir.

Yazıçılar İttifaqının uğurlu fəaliyyəti və ədəbi məcmuələrin kütləvi nəşri də ümummilli lider Heydər Əliyevin milli ədəbiyyatın inkişafına göstərdiyi böyük qayğının əməli təzahürüdür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycançılıq siyasətinin ideoloji əsası özündə görkəmli dövlət xadimi Heydər Əliyevin ədəbiyyat və mədəniyyət təlimini ehtiva edir. Dövlət başçısı bu əbədiyaşar təlimi yeni epoxanın prinsiplərinə uyğun əlavə müddəalarla zənginləşdirərək müasir dövrün ədəbiyyat siyasətini müəyyən etmişdir. İnkişaf xəttində həmin prinsiplər söykənən ədəbiyyatımız üçün 2019-cu il Azərbaycan və bütün dünyada "ədəbiyyat ili" kimi yaddaqalan olmuşdur. Belə ki, ölkə Prezidentinin sərəncamları ilə yaradıcı birliklərə maddi vəsaitlərin ayrılması ilə bağlı həyata keçirilən tədbirlər, Yazıçılar İttifaqının fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması və İmadəddin Nəsiminin 650, Cəlil Məmmədquluzadənin 150 illik yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi, yerli, respublika və beynəlxalq səviyyəli tədbirlərin reallaşdırılması müstəqillik dövründə ədəbiyyat siyasətinə uğurlu nümunələrdir. Dünya ədəbiyyatına aid nadir əsərlərin latın qrafikası ilə kütləvi nəşri bu sahədə həyata keçirilən uğurlu layihədir.

Ötən il Naxçıvan Muxtar Respublikasında Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin keçirilməsi ilə bağlı tədbirlər planının təsdiq edilməsi, Ərtoğrol Cavidin və Hüseyn İbrahimovun 100 illik yubileylərinin dövlət səviyyəsində qeyd olunması ilə bağlı muxtar respublika rəhbəri tərəfindən imzalanan sərəncamlar, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin fəaliyyətinin inkişafı üçün 25 min manat vəsaitin ayrılması və digər tədbirlər yaradıcı ədəbi mühitin inkişafında mühüm rola malikdir. Həmçinin ədəbi fəaliyyətləri nəzərə alınmaqla tanınmış yazıçılara fəxri adların, fərdi təqaüdlərin və yaradıcı gəncliyin istedadlı nümayəndələrinə mükafatların verilməsi də ulu öndər tərəfindən əsası qoyulmuş ədəbi siyasətin konkret əməli işlərlə davamıdır. 2019-cu ildə Ali Məclis Sədri yanında Bilik Fondu tərəfindən irfan ədibi Nemətullah Naxçıvaninin əsərlərinin tərcüməsi və nəşri, Ərtoğrol Cavidin yaradıcılığına həsr olunmuş bir monoqrafiya və iki kitabın, Yazıçılar Birliyi üzvlərinin ədəbi yaradıcılığını özündə əks etdirən "Naxçıvanım – göz nurum" adlı almanaxın nəşri və həyata keçirilən digər tədbirləri dahi öndər Heydər Əliyevin əsasını qoyduğu ədəbi inkişaf təliminin Ali Məclisin Sədri cənab Vasif Talıbov tərəfindən davamı kimi dəyərləndirmək olar.

Bu tədbirlər çərçivəsində muxtar respublika yazıçılarının sosial vəziyyətinin yaxşılaşdırılması üçün mükafatların ayrılması, Şamil Zamanın tərcüməsində fransız yazıçısı Qustav Floberin "Salambo" romanının, Əliyar Yusiflinin şeirlərindən və bir pyesindən ibarət kitabın və Kamil Arazın şeirlərindən ibarət uşaq ədəbiyyatı nümunələrinin nəşri də nəzərdə tutulur.

Muxtar respublikada tanınmış ədiblərin dövlət səviyyəsində yubileylərinin keçirilməsi, onların əsərlərinin yubiley nəşrlərinin hazırlanaraq geniş oxucu auditoriyasına təqdim edilməsi bədii yaradıcılıq fəaliyyətinin daha da inkişaf etdirilməsinə təkan verir. Son illərdə muxtar respublikada aparılan böyük quruculuq proseslərinin tərkib hissəsi kimi Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının və xalq teatrlarının fəaliyyətlərinin inkişaf etdirilməsi, habelə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin fəaliyyətinin əsaslı şəkildə qurulması və müasir avadanlıqlarla təchiz edilməsi, Naxçıvanda Ədəbiyyat Muzeyi və Mirzə Cəlilin Nehrəm kəndindəki ev-muzeyi, Şahbuz rayonunda Məmməd Arazın ev-muzeyi, Kəngərli rayonunda Şahtaxtinskilər Muzeyinin və digər mədəniyyət müəssisələrinin tikilib istifadəyə verilməsi bədii ədəbiyyatın, söz sənətinin qorunmasında və gələcək nəsillərə ötürülməsində mühüm rol oynayır. Bütün bunlar ölkə Prezidenti cənab İlham Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən ədəbiyyat və mədəniyyət işinin müstəqillik dövrünün tələblərinə uyğun inkişafının yeni səviyyəyə qaldırılmasını göstərir.

Beləliklə, müasir dövrdə yeni tarixi epoxanın Azərbaycan ədəbiyyatı siyasəti formalaşır və ardıcıl olaraq inkişaf edir. Dahi öndər Heydər Əliyev demişdir: ***"Mən gənclərə üzümü tutub deyirəm, – sizin qarşınızda çox gözəl imkanlar, perspektivlər var. Şübhə etmirəm ki, siz böyük uğurlar qazanacaqsınız, ədəbiyyatımızı inkişaf etdirəcəksiniz. Şübhə etmirəm ki, sizin içinizdən Azərbaycan xalqının ədəbiyyatını, mədəniyyətini daha da yüksəklərə qaldıran böyük şairlər, yazıçılar, ədəbiyyatşünaslar çıxacaqdır. Mən buna heç şübhə etmirəm. Çünki indiyədək yaşadığımız dövr və əldə etdiyimiz nailiyyətlər buna belə deməyə tam əsas verir. Şərait daha da sərbəst olanda, insan daha da müstəqil, azad olanda, şübhəsiz ki, onun daxilində olan imkanlar daha çox açılır və öz bəhrəsini verir".***

*Əminik ki, uğurla həyata keçirilən ədəbiyyat siyasəti yeni axtarışların və çağdaş ədəbi nəslin meydana çıxması, ərsəyə gəlməsi ilə nəticələnəcək, Azərbaycançılıq məfkurəsinin zənginləşdirilməsinə xidmət edəcəkdir.*

**Surə SEYİD**
**Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri**

***Naxçıvan Qarnizonu qoşunlarında 2019-cu tədris ilinin nəticələri ilə bağlı müşavirə keçirilib.***

# Naxçıvan Qarnizonu qoşunlarında müşavirə keçirilib



Naxçıvan Qarnizonunun rəisi, general-leytenant Kərəm Mustafayev müşavirəni açıq elan etdikdən sonra muxtar respublikamızda ordu quruculuğundan bəhs edən "Ordumuz qürurumuzdur" adlı film nümayiş olunub.

General-leytenant 2019-cu tədris ilində qoşunlarda döyüş hazırlığının, maddi-texniki təminatın və hərbi intizamın vəziyyətini təhlil edərək bildirib ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı sayəsində müdafiə qüdrəti durmadan artan muxtar respublikamızda hərbi infrastrukturun müasirləşdirilməsi istiqamətində mühüm işlər görülür, böyük əhəmiyyətə malik layihələr icra olunur.

Vurğulanıb ki, 2019-cu ildə döyüş hazırlığında əsas diqqət şəxsi heyətin hərbi peşəkarlıq səviyyəsinin, əməliyyat və döyüş hazırlığı tədbirlərinin effektivliyinin artırılmasına, idarəetmə orqanlarının və qoşunların peşəkar hərbi kadrlarla komplektləşməsinə, döyüş qabiliyyətinin yüksəldilməsinə yönəldilib.

Qoşunların bir mərkəzdən idarə olunmasının təkmilləşdirilməsi və uzlaşmış fəaliyyətə nail olunması məqsədilə ötən tədris ilində bir neçə dəfə Naxçıvan Qarnizonu qoşunlarının birgə təlimləri keçirilib. Ötən il aprelin 18-də "Naxçıvan Qarnizonu qoşunlarının 2019-cu tədris ilinə uzlaşma planı" üzrə görülən işlərin nəticələrinə həsr olunmuş müşavirədə Ali Məclisin Sədri qarnizonun birləşmə və hissələrinin qarşılıqlı fəaliyyətini yüksək qiymətləndirib.

Ötən il ərzində Naxçıvan Qarnizonu qoşunları və Türkiyə Silahlı qüvvələrinin bölmələri ilə birlikdə iki əməliyyat taktiki təlimi keçirilib. Bunlardan biri Türkiyə Respublikasının Qars şəhərində "Qış – 2019" beynəlxalq təlimi, digəri isə Naxçıvanda "Sarsılmaz qardaşlıq – 2019" təlimi olub. Bundan başqa, Azərbaycan Ordusu miqyasında keçirilən əməliyyat təlimində də yüksək peşəkarlıq nümayiş etdirilib.

2019-cu ildə Culfa rayonunda Naxçıvan Qarnizonu qoşunlarının yeni Səhra Təlim Mərkəzinin, Kəngərli rayonunun Qıvraq qəsəbəsindəki hərbi hissədə zabit-gizir ailələri üçün 5 mərtəbəli, 44 mənzilli yaşayış binasının və istirahət parkının, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının 15-ci Sərhəd zastavası üçün yeni xidmət və yaşayış kompleksinin, Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsi üçün yeni qərargah binasının, Naxçıvan hərbi şəhərciyində 220 yerlik zabit yataqxanasının istifadəyə verilməsi muxtar respublikamızda ordu quruculuğu sahəsində görülən işlərin məntiqi davamıdır.

Bildirilib ki, ümumilikdə, ötən il ərzində keçirilən tədbirlər şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin yüksək səviyyədə olduğunu təsdiq edib. Qarnizonun "Bir nəfər hamı, hamı bir nəfər üçün!" şüarı əməldə özünü göstərib.

Məruzə ətrafında müzakirələr zamanı Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar naziri, general-leytenant Şamı Abdullayevin, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-mayor Niyaməddin Tağıyevin, Hərbi Məhkəmənin sədri Polad Həsənovun, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, polkovnik-leytenant Daşqın Rəhimovun, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının komandiri, general-mayor Səlim Niftəliyevin, Hərbi prokurorun müavini, ədliyyə polkovnik-leytenantı Rəşad İsmayılovun, Dövlət Təhlükəsizliyi Xidmətinin İdarə rəisi, polkovnik-leytenant Ramin Əhmədovun məruzə və təklifləri dinlənilib.

Sonda döyüş və ictimai-siyasi hazırlıqda yüksək nəticələr əldə etmiş bir qrup hərbi qulluqçuya "Şücaətə görə" medalı, "Hərbi xidmətdə fərqlənməyə görə" 1-ci, 2-ci və 3-cü dərəcəli medalları, "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalı, fəxri fərman və qiymətli hədiyyə təqdim olunub.

**Nəriman NƏCƏFOV**

## Teymur Göyçayev: “Bir yerdə ki yüksək mədəniyyət var, orada inkişaf danılmazdır”

*Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin bədii rəhbəri, tanınmış dirijor, Xalq artisti, “Şöhrət” ordenli Teymur Göyçayev ötən həftə yenidən Naxçıvanda olub. Tanınmış dirijor Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin və Naxçıvan Dövlət Uşaq Filarmoniyasının Uşaq xor kollektivləri üçün ustad dərsləri keçib. Həmin dərslərin bəhrəsi kimi fevralın 1-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında 2 fevral – Gənclər Günü münasibətilə uğurlu və maraq dolu bir konsert proqramının şahidi olduq.*

*Teymur müəllimin rəhbərliyi ilə keçirilən məşq proseslərini və konsert proqramını yaxından izlədikdən sonra onunla səfərinin məqsədi və təəssüratları barədə söhbətləşmək imkanı əldə etdik. Həmin müsahibəni oxucularımıza təqdim edirik:*





***– Teymur müəllim, bu, sizin qısa zaman ərzində Naxçıvana ikinci gəlişinizdir. Biz də öz adımızdan xoş gəlmisiniz, – deyirik. İlk olaraq bu səfərlərin məqsədi və təəssüratı barədə söhbətimizə başlayaq.***

– Xoş sözləriniz və qonaqpərvərliyiniz üçün sizə və bütün Naxçıvan ictimaiyyətinə təşəkkür edirəm. Bəli, bir neçə ay ərzində ikinci dəfədir ki, bu gözəl diyarda oluram. Ötən il noyabr ayında gəlmişdim. Naxçıvan Dövlət Filarmoniyasının kollektivi ilə qısa bir tanışlıq imkanım oldu. Birlikdə fikir mübadiləsi apardıq, qərara gəldik ki, yenidən görüşək və daha geniş ustad dərsləri keçilsin. Nəticə olaraq isə birlikdə konsert proqramı təşkil etməyi planlaşdırdıq. Qismət bu günə imiş... Düşünürəm ki, istəyimizə nail olduq.

***– Bəli, gözəl konsertdən bir tamaşaçı kimi biz də yüksək zövq aldıq. Konsertiniz 2 fevral – Gənclər Gününə həsr edilmişdi. Bu, əvvəlcədən planlaşdırılmışdı?***

– Pedaqoji fəaliyyətimlə əlaqədar Naxçıvana ikinci səfəri qış tətilinə qərarlaşdırdım. Görüşümüz Gənclər Günü ərəfəsinə təsadüf etdiyindən və Naxçıvanda bu əlamətdar gün özünəməxsus şəkildə qeyd olunduğu üçün biz də konserti həmin günə həsr etdik.

Onu da qeyd edim ki, mən buraya tək gəlməmişəm. Həyat yoldaşım Esmira xanım pianoda, əslən Ordubaddan olan Anar Yusifov isə skripkada bizi müşayiət etdi. Gəldiyimiz gündən etibarən bir həftə ərzində gərgin məşq prosesi keçdik. Kollektiv məşqlərə çox ciddi yanaşdı. Proqramımız da çox rəngarəng idi. Konserti izlədikdə özünüz də bunun şahidi oldunuz. Solistlərin hamısı Naxçıvan Dövlət Filarmoniyasının üzvləri idi və bir saat ərzində tamaşaçıların zövqünü oxşamağa çalışdıq.

***– Kollektivdəki gənclərin musiqi bilikləri və təcrübəsi sizi qane etdimi?***

– İlk növbədə, özümə, eyni zamanda qarşımda olan kollektivə hər zaman çox tələbkaram. Bu qısa zamanda, təbii ki, bəzi çatışmazlıqların olduğunu müəyyənləşdirdik. Məsələn, müxtəlif aplikasiyalar, barmaqların ifa ritminə uyğunlaşdırılması kimi nöqsanlarla rastlaşdıq. Bu isə hər bir kollektivdə olması gözlənilən bir nüansdır. Bu cür halların aradan qaldırılması isə müəyyən zaman tələb edir.

Sözün açığı, inanırdım ki, kollektivin üzvləri, o cümlədən gənclərin hər biri istedadlıdır və proqramın öhdəsindən layiqincə gələcəklər. Kollektivin musiqi duyumu, bacarıq və səriştəsi, ən əsası isə işə məsuliyyəti bizə hər şeyi qısa zamanda yekunlaşdırmağa imkan verdi.

Bilirsiniz, önəmli olan istək və həvəsdir. İstək, yanarlılıq olanda isə aşa bilməyəcəyiniz çətinlik, baryer qalmır. Məşq prosesi zamanı kollektivdə bu səy və maraq hesabına uğurlu nəticə alındı. Biz də qazandığımız təcrübəni gənc musiqiçilərlə bölüşməkdən yüksək zövq aldıq.

***– Təbii ki, konsertdəki professional ifa həm də gənclərin yüksək musiqi təhsilindən xəbər verir. Gənc musiqiçilərimizin yetişdirilməsi üçün mövcud şərait barədə qənaətləriniz də bizim üçün maraqlı olardı.***

– Ümumilikdə, belə deyə bilərəm ki, Naxçıvanın gözəlliyi fonunda burada musiqi tədrisi şəraiti də çox gözəldir. Hər dəfə mən buraya gələndə çox heyrətlənirəm. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova Ulu Tanrıdan uzun ömür arzulayıram. Onun Naxçıvanı necə sevdiyi, naxçıvanlıların isə muxtar respublika rəhbərinə sevgi və ehtiramı hər addımda hiss olunur. Hər yerdə hökm sürən təmizlik-abadlıq, nizam-intizam insana xoş təəssürat bağışlayır. Muxtar respublikada digər sahələr kimi, musiqi mədəniyyəti də diqqət və qayğıdan kənarda qalmayıb. Elə qısa zamanda birgə çalışdığım kollektivin də timsalında bunun şahidi oldum. Onlarla söhbətimiz zamanı göstərilən diqqət və qayğını xüsusi hiss etdik. Bu da bir musiqiçi kimi məni çox sevindirir.

Qısaca onu deyə bilərəm ki, yaxşı təhsil və uğurlu nəticə üçün hər şey var. Sadəcə, təcrübəli pedaqoqları bu işə daha çox cəlb etməklə, musiqiçiləri kiçik yaşlarından yetişdirməklə ürəkaçan nəticələr qazanmaq olar. Naxçıvanda bu məsələyə önəm verilməsini alqışlayırıq. Biz də əlimizdən nə gəlirsə, gənclərə aşılamağı, öyrətməyi, peşəkar kollektivlər yetişdirməyi özümüzə borc bilirik.

Kollektivin hazırlıq vəziyyəti barədə isə onu deyə bilərəm ki, buradakı üzvlərin hər biri musiqi duyumu yüksək olan səriştəli gənclərdir. Onlar ən çətin konsert proqramının hazırlanmasında belə, iştirak etməyə qadirdirlər. Lakin yenə də təkrar edirəm, işləmək, daha çox öyrənmək və təcrübəni artırmaq lazımdır. Deyə bilərəm ki, ötən bir həftə ərzində bir saatlıq ağır proqramın öhdəsindən gəldilərsə, deməli, daha böyük uğurlar əldə etmək üçün də potensial vardır. Göstərilən xüsusi diqqət və qayğı hər kəs kimi, bizi də daha böyük səylə çalışmağa ruhlandırdı.

***– Teymur müəllim, bilirsiniz ki, Naxçıvanda musiqi mədəniyyəti qədim köklərə dayanır. Bu ənənələr yaşadılmaqla və müasir metodların tətbiqi ilə yeni musiqiçilər nəsli yetişdirilir. Bir musiqişünas kimi bu barədə də fikirlərinizi öyrənmək istərdik.***

– Bəli, biz hər zaman izləyir, müşahidə edir və çox sevinirik ki, milli musiqimiz yaşadılır və inkişaf etdirilir. Bir sözlə, milli musiqi mədəniyyətimiz fəth etdiyi zirvəni qoruyub saxlayır. Ölkə rəhbəri bu işlərə çox böyük önəm verir. Muğamımızın, qədim musiqi mədəniyyətimizin, xüsusilə də Şərur yallılarının, milli musiqi alətlərimizin YUNESKO səviyyəsində tanıdılması bu nailiyyətlərdə əsas rol oynayıb.

Təbii ki, Naxçıvan bu prosesdə qabaqcıl mövqedə dayanır. Burada bacarıqlı və peşəkar musiqiçilər yetişib fəaliyyət göstərir. Xüsusilə Naxçıvanda klassik musiqi ilə yanaşı, xalq çalğı alətlərindən istifadəyə daha çox önəm verilməsi diqqətimi çəkdi. Bu, çox önəmli bir addımdır. Bu istiqamətdə musiqiçilərin yetişdirilməsi milli musiqi mədəniyyətimizin qorunub saxlanmasına və inkişafına mühüm töhfədir.

***– Son olaraq Naxçıvanla bağlı ümumi təəssüratlarınızı öyrənmək istərdik.***

– Naxçıvanda dəfələrlə olmuşam. Həmişə buradan qayıtdıqdan çox keçmir ki, bu qədim diyar üçün darıxıram. Etiraf edim ki, bir də muxtar respublikaya nə zaman səfər etmək imkanımın olacağını gözləyirəm. Ötən 15 il ərzindəki səfərlərim bu diyarı mənə daha da doğmalaşdırıb və əlaqələrimiz getdikcə genişlənib. Bugünkü layihə də bu səfərlərin tərkib hissəsi və davamı kimi məni çox sevindirir. Burada mədəniyyət sahəsinin inkişafı da yüksək səviyyədədir. Bilirsiniz, bir yerdə ki yüksək mədəniyyət var, orada inkişaf danılmazdır.

Esmira xanım ikinci dəfədir, Naxçıvana gəlir. O da mənim kimi bu cənnət diyarın vurğunudur.

*Esmira xanım söhbətimizə qoşulur:*

– Bu konsert bizim üçün çox məsuliyyətli idi. Ona görə hər şeyə ciddi hazırlaşdıq. 2019-cu ilin noyabrında Naxçıvana gələndə ilk olaraq buranın saf havası mənə xoş təsir bağışladı. Daha sonra isə şəhərinizin təmizliyinə, abadlığına, müasir görkəminə valeh oldum. Allah bu gözəllikləri qurub-yaradanların canını sağ eləsin. İnsanların qonaqpərvərliyi, mehribanlığından zövq aldım. Qismət olarsa, yenə də gəlmək istəyərəm.

Naxçıvandakı gənc musiqiçilərin bacarıq səviyyəsinə gəlincə, 1995-ci ildən bu sənətin içindəyəm və hər zaman, hər gün, hər saat bizim özümüz də nələrisə öyrənirik. Ustad dərsi keçdiyimiz musiqiçilərdən belə nələrisə mənimsəyib təcrübəmizə əlavə edirik. Bu baxımdan sənətdə yaş fərqi yox, sadəcə, istedad fərqi olur. Naxçıvanda ustad dərsi keçdiyimiz orkestrin tərkibində təcrübəli musiqiçilərlə yanaşı, gənc ifaçılar da var idi. Biz onların hər birinə eyni cür yanaşırıq. Buna görə də işimiz heç də çətin olmadı. Naxçıvanda musiqiçi kadrların yetişdirilməsi barədə fikrimi isə sadəcə, bir cümlə ilə ifadə edə bilərəm: hər şeyi, məncə, keçirdiyimiz uğurlu konsert proqramı dedi.

*Çox sağ olun. Hər ikinizə qısa zaman ərzində müsahibə üçün vaxt ayırdığınıza görə minnətdarıq.*

**✍ Gülcamal TAHİROVA**

## Polis əməkdaşları arasında növbəti birincilik



*Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları arasında güc çoxnövçülüyü üzrə keçirilən birinciliyə yekun vurulub.*

Nazirliyin idman cəmiyyətinin zalında keçirilən yarışın məqsədi polis əməkdaşları arasında fiziki gücü, dözümlülüyü və dayanıqlılığı inkişaf etdirmək, həmçinin Azərbaycan Respublikası Daxili İşlər Nazirliyində keçiriləcək güc çoxnövçülüyü üzrə yarışda iştirak edəcək idmançılar seçməkdən ibarət olub.

Açılış mərasimində çıxış edən nazirliyin Təşkilat-İnspeksiya İdarəsinin rəisi, polis polkovniki Rəşad Seyidov bildirib ki, bu gün muxtar respublika rəhbəri tərəfindən idmana və idmançılara göstərilən yüksək qayğının tərkib hissəsi olaraq polis əməkdaşlarının fiziki inkişafına və idman məşqlərinin keçirilməsinə də xüsusi diqqət yetirilir. Üzərimizə düşən vəzifə idman məşqlərində iştirak etmək, qarşımıza qoyulan tapşırıqları yerinə yetirməkdir.

Daxili İşlər Nazirliyinin Veteranlar Şurasının sədri, istefada olan polis polkovniki Yusif Həsənov və idman cəmiyyətinin rəisi, polis kapitanı Elməddin Abdullayev çıxış edərək Naxçıvanda idmana və idmançılara göstərilən diqqət və qayğıdan danışıb, polis idmançılarımızın təcrübələrinin ildən-ilə artdığını vurğulayıblar.

Çıxış edənlər Naxçıvan Respublikası Daxili İşlər naziri adından idmançılara uğurlar arzulayıblar.

Yarışda 16 komandanın 100-dən çox idmançısı mübarizə aparıb. Onlar iki növdə – ağırlıq daşlarını qaldırma və qol güləşində qüvvələrini sınayıblar.

Yekun nəticəyə əsasən komanda hesabında Daxili qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadası qalib adını qazanıb. Naxçıvan Dəmiryol Nəqliyyatında Polis Şöbəsinin komandası ikinci, Naxçıvan Şəhər Polis İdarəsinin komandası isə üçüncü olub.

Sonda qaliblər mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

*“Gənclik” Mərkəzində yeniyetmələr arasında İntellektual Oyunlar Olimpiadasının Naxçıvan şəhər mərhələsi keçirilib.*

## Olimpiadanın Naxçıvan şəhər mərhələsi keçirilib



Olimpiadanın təşkilində məqsəd yeniyetmələrin intellektual fəaliyyətə cəlb edilməsi, bu sahədə bilik və bacarıqlarının formalaşması, dünyagörüşlərinin stimullaşdırılması, onlar arasında bilik və elmin nüfuzunun artırılması, asudə vaxtlarının səmərəli təşkil edilməsidir.

Yarışlar başlanmazdan əvvəl Gənclər və İdman Nazirliyinin əməkdaşı Valeh Mahmudov çıxış edərək oyunun mahiyyəti haqqında iştirakçılara məlumat verib və onlara uğurlar arzulayıb. Olimpiada çərçivəsində 3 intellektual oyun – “Xəmsə” , “Vətəni tanı” və “Poliqon” intellekt oyunları vahid turnir şəklində keçirilib.

Sonda “Poliqon” strateji intellekt oyununda “Araz” komandası I, “Qarabağ” komandası II, “Gəmiqaya” komandası III yeri qazanıblar. “Vətəni tanı” intellektual oyununda “Naxçıvan” komandası I, “Odlar yurdu” komandası II, “Günnüt” komandası III yerə layiq görülüblər. “Xəmsə” milli intellektual oyununda isə “Altay” komandası I, “Qarabağ” komandası II, “Zirvə” komandası III yerə çıxıb. Qalib komandalara təşkilatçılar tərəfindən diplom, komanda üzvlərinə isə fəxri fərmanlar və oxunması zəruri olan kitablar təqdim olunub.

Qeyd edək ki, qalib komandalar may ayında təşkil olunacaq İntellektual Oyunlar Olimpiadasının muxtar respublika birinciliyində Naxçıvan şəhərini təmsil edəcəklər. 100-dən çox yeniyetmənin iştirak etdiyi olimpiada Gənclər və İdman, Təhsil nazirliklərinin, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin və “Gənclərin İntellektual İnkişaf Mərkəzi” İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***


### İtmişdir

Rəcəbov Rəşad Xaliq oğlunun adına olan “İstanbul-2” kiçik müəssisəsinə məxsus dövlət əmlakının hüquqi və fiziki şəxslərə satılması haqqında 479 qeydiyyat nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

* * *

Həsənov İsmayıl İbrahim oğlunun adına Naxçıvan Dövlət Universiteti tərəfindən verilmiş 074089 nömrəli diplom itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47

Şöbələr: 545-81-44, 545-51-18

Müxbirlər: 545-75-21, Faks: 544-52-52

E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 117